# Sefanya

*Peyğəmbərin Kitabı*

***Giriş***

Sefanya peyğəmbər miladdan əvvəl VII əsrin 2-ci yarısında, ehtimala görə padşah Yoşiyanın 621-ci ildə etdiyi dini islahatlardan əvvəlki illərdə fəaliyyət göstərmişdir. Kitaba mə'lum olan peyğəmbərlik mövzuları daxildir: bütlərə ibadət etməsinə görə Yəhudanın üzərinə cəza və dağılma günü gələcək. Rəbb həmçinin başqa millətləri cəzalandıracaq. Yerusəlim də məhkum olacaq, lakin müəyyən vaxt bərpa olunacaq və orada həlim və saleh xalq yaşayacaq.

***Kitabın məzmunu:***


Rəbbin məhkəmə günü 1:1-2:3
Rəbbin millətlərə cəzası 2:4-15
Yerusəlimin gələcəyi 3:1-20


1 [1] Yəhuda padşahı Amon oğlu
Yoşiyanın hökm etdiyi dövrdə Xizqiya
oğlu Amarya oğlu Gedalya oğlu Kuşi oğlu
Sefanyaya Rəbbin sözü nazil oldu.

### *Rəbbin məhkəmə günü*

[2] Rəbb belə bəyan edir:
«Yer üzündən hər şeyi silib-
süpürəcəyəm».
[3] Budur, Rəbb belə bəyan edir:
«İnsanları, heyvanları,
Göydəki quşları, dənizdəki balıqları,
Pis adamları ilə
Şər üçün qurulan tələlərini
Silib-süpürəcəyəm,
İnsanı yer üzündən yox edəcəyəm.

[4] Əlimi uzadıb Yəhuda və Yerusəlim
sakinlərinin
Hamısını cəzalandıracağam,
Baal bütlərinə ibadətin qalıqlarını,
Kahinlərlə bütpərəst din xadimlərinin
adlarını da buradan silib atacağam.
[5] Damlarda göy cisimlərinə səcdə
edənləri,
Həm Rəbbin adına, həm də Milkom bütü
adına
And içib səcdə edənləri,
[6] Rəbbin yolundan dönənləri,
Rəbbə müraciət etməyənləri,
Rəbdən məsləhət almayanları
Buradan yox edəcəyəm».

[7] Susun Xudavənd Rəbbin qarşısında,
Çünki Onun günü yaxınlaşır,
Rəbb qurban hazırlayıb, qonaqlarını
də'vət edib.
[8] Rəbb deyir: «O qurban günü əmirləri,
şahzadələri,
Əcnəbi dəbi ilə geyinənləri
cəzalandıracağam.
[9] O gün kandarından tullanıb keçənləri,
Öz ağalarının evlərini zorakılıq və hiylə
ilə
Dolduranları cəzalandıracağam».

[10] Rəbb bəyan edir:
«O gün Yerusəlimdə Balıqlar
darvazasından fəğan səsi,
İkinci Məhəllədən fəryadlar,
Təpələrdən isə böyük gurultu
eşidiləcək».
[11] Ey bazar məhəlləsinin sakinləri, nalə
çəkin!
Bütün tacirləriniz məhv olacaq,
Tərəzidə gümüş çəkənləriniz qırılacaq.

[12] O zaman Yerusəlimin hər tərəfini
Çıraqlarla axtaracağam,
Firavan yaşayan qayğısızları,[1]
Ürəklərində
«Rəbb nə yaxşılıq, nə də pislik –
Heç nə etməz»
Deyənləri cəzalandıracağam.
[13] Var-dövlətləri talan olacaq,
Evləri xaraba qalacaq,
Tikdikləri evlərdə yaşamayacaqlar,
Onlar saldıqları üzümlüklərin
Şərablarını içməyəcəklər.
[14] Rəbbin möhtəşəm günü yaxınlaşır,
Yaxınlaşır, tez gələcək.
Rəbbin günündə fəryad səsi çıxacaq,
İgid adam belə, fəryad edəcək.
[15] O gün qəzəb günüdür:
Hər tərəfi
Əziyyət və məşəqqətin,
Viran və talanın,
Qaranlıq və zülmətin,
Qara buludların bürüdüyü gündür!

---

***1:1** – 2Pad. 22:1-23:30; 2Saln. 34:1-35:27*

[1] **1:12** *Firavan yaşayan qayğısızlar* – hərfi tərcümədə *çöküntüsü dibə çökmüş şərab kimi olanlar.*
***1:15** – Yoel 2:2*

[16] O gün istehkamlı şəhərlərə,
Hündür künc qüllələrinə qarşı
Döyüş üçün çalınan şeypurların,
Döyüş nə'rələrinin səsləndiyi gündür!
[17] Rəbb deyir:
«Adamlara elə bəla göndərəcəyəm ki,
Kor kimi hara gedəcəklərini
bilməyəcəklər,
Çünki Mən Rəbbə qarşı günah ediblər.
Qanları su kimi axacaq,[2]
Bədənləri yerdə çürüyüb peyin olacaq».
[18] Rəbbin qəzəb günündə
Qızıl-gümüşləri
Onları qurtara bilməyəcək,
Onun qısqanc qəzəbinin alovunda
Bütün ölkə yanıb yox olacaq,
Çünki O, bir anda ölkənin sakinlərini
qıracaq.

### *Tövbəyə çağırış*

2 [1] Ey utanmaz millət, toplaşın!
[2] Fərman çıxmadan,
O gün saman çöpü tək uçmadan,
Rəbbin qızğın qeyzi başınıza gəlmədən,
Rəbbin qəzəb günü sizə yetişmədən öncə
toplaşın!
[3] Ey Rəbbin hökmünə əməl edən sizlər,
Ölkədəki təvazökar insanlar, Rəbbə
meyl salın!
Salehliyə meyl salın!
Təvazökarlığa meyl salın!
Bəlkə siz Rəbbin qəzəb günündə qurtula
bildiniz.

### *Rəbbin millətlərə cəzası*

[4] Qəzzə bomboş qalacaq,
Aşqelon xarabalığa dönəcək,
Aşdod əhalisi günorta çağı qovulacaq,
Eqron özülündən sökülləcək!
[5] Dəniz sahilində yaşayanların –
Keretlilərin[3] vay halına!
Ey Filiştlilərin torpağı Kən'an,
Rəbbin hökmü sizə qarşıdır,
Rəbb hamınızı yox edəcək.
Ölkədə heç bir sakin sağ qalmayacaq!

[6] Dəniz sahilindəki ölkəniz otlaqlara,
Çoban daxmalarına və qoyun-keçi
ağıllarına dönəcək!
[7] Bu ölkə Yəhuda nəslindən qalanların
əlinə keçəcək,
Sürülərini orada otaracaqlar,
Axşam Aşqelondakı evlərində yatacaqlar,
Çünki özlərinin Allahı Rəbb onları yada
salaraq
Yenə firavan edəcək.

[8] İsrailin Allahı, Ordular Rəbbi bəyan
edir:
«Moavlıların rişxəndlərini,
Ammonluların təhqirlərini eşitdim.
Xalqına rişxənd edib lovğalanaraq
dedilər ki,
Xalqımın sərhədlərini keçəcəklər.
[9] Buna görə də varlığıma and olsun,
Moav mütləq Sodom kimi,
Ammon Homorra kimi olacaq:
Oraları alaqlar və duzlu çalalar basacaq,
Əbədi viranəliyə dönəcək.
Xalqımın qalanları oranı talan edəcək,
Torpaqlarına millətimdən sağ qalanlar
Sahib olacaq».

[10] Bu onların məğrurluğunun əvəzi
olacaq,
Çünki bu xalqlar
Ordular Rəbbinin xalqına rişxənd edib
lovğalandı.
[11] Rəbb onları dəhşətə salacaq,
Yer üzünün bütün allahlarını yox edəcək.
Uzaqlarda yaşayan bütün millətlər
Olduqları yerlərdə Ona səcdə edəcək.

[12] «Ey Kuşlular, siz də
Mənim qılıncımla öldürüləcəksiniz»
Rəbb deyir.
[13] Rəbb əlini şimala doğru uzadıb
Aşşuru yox edəcək,
Ninevanı viranəliyə,
Səhra kimi quruya çevirəcək,
[14] Ora sürülərin, hər cür heyvanın
Yatdığı yer olacaq.
Orada sütun başlarında,

---

[2] **1:17** *Qanları su kimi axacaq* – hərfi tərcümədə *qan toz kimi töküləcək.*
***2:4-7*** *– Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Zək. 9:5-7*
[3] **2:5** *Keret* – Krit adası nəzərdə tutulur.
***2:8-11*** *– Yeş. 15:1-16:14; 25:10-12; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 1:13-15*
***2:8-11*** *– Yer. 49:1-6; Yez. 21:28-32; 25:1-7; Amos 1:13-15*
***2:9*** *– Yar. 19:24*
***2:13-15*** *– Yeş. 10:5-34; 14:24-27; Nah. 1:1-3:19*

Bayquşlar, yapalaqlar yuva quracaq,
Onlar pəncərələrdən ulayacaq,
Qarğalar kandarlardan qarıldayacaq
Evlərdə sidr tirləri görünəcək.
15 Bu şəhər zövq-səfalı şəhər idi,
Əmin-amanlıq içində yaşayırdı.
Hey belə deyərdi:
«Mən mənəm, məndən başqası yoxdur!»
Necə də bu şəhər xarabalığa döndü,
Vəhşi heyvanların yuvası oldu!
Yanından keçən hər kəs vahimədən
Kənara çəkilir.

### *Yerusəlimin gələcəyi*

3 1 Asi, pozğun, qəddar şəhərin vay halına!
2 Söz dinləmədi, ibrət dərsi almadı,
Rəbbə güvənmədi, Allahına
yaxınlaşmadı.
3 Başçıları nərildəyən aslanlara bənzəyir,
Hakimləri axşam gəzən ac qurdlar kimi
Səhərə qədər bir şey qoymaz.
4 Peyğəmbərləri məs’uliyyətsiz, xain
adamlardır,
Kahinləri müqəddəs olanı murdarlayıb,
Qanunun mə’nasını pozur.
5 Amma şəhərin içində olan Rəbb
salehdir,
O haqsızlıq etməz.
Hər yeni günün səhərində
Durmadan ədalətini zühur etdirər,
Amma haqsız adam utanmaq bilməz.

6 Rəbb belə deyir:
«Millətləri məhv etdim,
Künc qüllələri dağıldı.
Küçələrini viran qoydum,
O küçələrdən artıq gəlib-keçən yoxdur!
Şəhərləri xarabalığa döndü,
Orada heç bir sakin də qalmadı.
7 Mən dedim:
“Xalqım Məndən qorxar,
İbrət dərsi alar”.
Onda məskənləri dağıdılmaz,
Verdiyim cəzaların hamısı üzərlərinə
gəlməz,
Lakin onlar hər cür pozğun iş
görməkdən zövq aldı».

8 Buna görə Rəbb bəyan edir:
«Şahid kimi qalxdığım
Günə qədər Məni gözləyin.

**2:15** – *Yeş. 47:8*

Çünki Mən millətləri yığmağı
Padşahlıqları toplamağı qərara almışam.
Qoy üzərlərinə qeyzimi, qızğın qəzəbimi
töküm.
Çünki qısqanc qəzəbimin odu ilə bütün
yer üzü tələf olacaq.
9 O zaman Mən xalqların nitqini dəyişib,
Onlara pak dil verəcəyəm ki,
Hamı Rəbbin adını çağırsın,
Mənə çiyin-çiyinə xidmət etsinlər.
10 Qürbətə dağılmış,
Mənə səcdə edənlər
Kuş çaylarının o tayından
Mənə təqdimlər gətirəcək.
11 O gün sən, ey xalqım,
Mənə qarşı asilik etdiyinə görə
Daha xəcalətli olmayacaqsan.
Çünki qürurlu, təkəbbürlü adamları
Sənin arandan uzaqlaşdıracağam,
Onlar artıq müqəddəs dağımda
Bir daha məğrur olmayacaq.
12 Sizin aranızda təvazökarları,
Məzlumları saxlayacağam,
Onlar Rəbbin adına güvənəcək.
13 İsraildən sağ qalanlar haqsızlıq
etməyəcək!
Kimsəni aldadaraq yalan
söyləməyəcəklər,
Çünki onlar qarnı tox yatacaq,
Onları qorxudan olmayacaq».

### *Sevinc nəğməsi*

14 Ey Sion qızı, tərənnüm elə,
Ey İsrail, uca səslə çığır!
Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin
və fərəhlən!
15 Rəbb sənin cəzanı ləğv etdi,
düşmənlərini qovdu!
İsrailin padşahı Rəbb səninlədir,
Artıq pislikdən qorxmayacaqsan!

16 O gün Yerusəlimə deyiləcək:
«Qorxma, ey Sion, qoy əllərin taqətdən
düşməsin!
17 Allahın Rəbb,
Qüvvətli Qurtarıcın səninlədir!
O sənin üçün sevinib şadlanacaq,
Səni məhəbbəti ilə yeniləşdirəcək,[4]
Sənin üçün tərənnümlə coşacaq!

***3:13*** – *Vəhy 14:5*
[4] **3:17** *Səni məhəbbəti ilə yeniləşdirəcək* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *məhəbbəti ilə susacaq*.

18 Bayram gününü qeyd edən kimi
Mən sənin üzərindən bəlaları
götürəcəyəm ki,
Onlara görə xəcalətli olmayasan.[5]
19 Budur, vaxt gəlir,
Mən sizə zülm edənlərin hamısını
cəzalandıracağam,
Şikəstləri qurtaracağam, sürgünləri
yığacağam,
Bütün dünyada çəkdikləri xəcaləti
Şan-şöhrətə çevirəcəyəm.
20 O zaman sizi toplayıb yurdunuza geri
qaytaracağam.
Görəcəksiniz, Mən sizi yenə firavan
edəndə
Bütün dünya xalqları arasında
Sizə şan-şöhrət verəcəyəm»
Rəbb deyir.

[5] **3:18** *Bayram gününü ... olmayasan* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *bayramlar üçün kədərlənənləri səndən yığacağam.*